# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

8 fevral 2018-ci il

Cümə axşamı

№ 5(3370)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BUDUR, AZƏRBAYCAN YOLU: İNKİŞAF, TƏRƏQQİ, YÜKSƏLİŞ

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə respublikamızda iqtisadiyyatın neft amilindən asılılığının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir. Bu sırada turizmin inkişafı ayrıca qeyd olunmalıdır. Vaxtilə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş «2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı» ölkəmizdə turizm sektorunun dirçəlməsinə təkan verib.

Azərbaycanın turizm sahəsi böyük perspektivlərə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb.

Ölkəmiz tarixi, maddi-mədəniyyət abidələri, ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Turizm potensialını təbliğ etmək yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi dünya ictimaiyyətinə çatdırmaq üçün də yaxşı fürsətdir. Dünyada turizm sahəsində böhran və çətinliklərin olmasına baxmayaraq, Azərbaycan müsafirlərinin sayının yüksək artımına nail olub. Bu, ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin nəticəsi olmaqla yanaşı, həm də dövlət tərəfindən bu sahəyə göstərilən diqqətin təzahürüdür.

Turizmin inkişafı bütövlükdə ölkənin inkişafının, həm də iqtisadiyyatın digər sahələrinin tərəqqisinə təkan verir, bunu zəruri edir. Təsəvvür edin, iqtisadi həyatı bərbad, kənd təsərrüfatı dağınıq və geridə qalmış, keyfiyyətli ərzaq istehsal və emal gücü olmayan ölkə hansı süfrə, çeşid və komfortla qonaq qarşısına çıxa bilər. Bu mənada kənd təsərrüfatı ölkənin sosial-iqtisadi və siyasi problemlərinin həllində, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır.

Hazırda kənd təsərrüfatının daha da inkişaf etdirilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Möhtərəm Prezidentimizin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda da bu məsələyə xüsusi önəm verilir.



Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi davamlı şəkildə həyata keçirilir. Onlara subsidiyaların verilməsi prosesinin təkmilləşdirilməsi, intensiv metodların tətbiqinin stimullaşdırılması, sığortalanma mexanizminin yaxşılaşdırılması, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının təşviqi, müasir texnologiyalara əsaslanan iri təsərrüfatların yaradılması prioritetlər sırasındadır. Eləcə də məhsul istehsalına və emalına xüsusi diqqət yetirilir, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və bu sahədə yeni müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilir.

Aqrar sektorda məhsul istehsalının artması onun ixracının da genişlənməsinə imkan yaradır.

Ölkə rəhbərimizin kənd təsərrüfatına göstərdiyi qayğının nəticəsidir ki, ötən il özəl sektorun ümumi daxili məhsuldakı payı artaraq 89 faizə çatıb.

Bu gün respublikamız davamlı inkişaf mərhələsinə qədəm qoyub. Ölkəmizdə bütün sahələrin inkişafı təmin edilib, sahibkarlıq fəaliyyəti güclənib, yeni müəssisələr və iş yerləri yaradılıb, əlverişli biznes və investisiya mühiti formalaşıb.

Azərbaycan artıq bütün dünyada həm də tranzit ölkə kimi tanınır. Buna misal olaraq Bakı-Tbilisi-Qars dəmir yolu ilə yanaşı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı xüsusi qeyd edilməlidir.

Azad iqtisadi zonanın yaradılması ilə bağlı qanun layihəsinin hazırlanması yüklərin Azərbaycan ərazisindən daşınması baxımından mühüm önəm kəsb edir. Bu da xarici sərmayənin ölkəyə axınını artırır. Əlverişli coğrafi mövqeyə malik olan və tarixən ticarət dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizin bu üstünlüyündən səmərəli istifadə olunması üçün dövlətimizin başçısı tərəfindən strateji qərarlar qəbul edilib, Azərbaycanın dünyanın aparıcı nəqliyyat və logistika mərkəzlərindən biri kimi inkişaf etdirilməsi məqsədilə transmilli layihələr icra edilir.

Bütün bunlar, eyni zamanda, regionların daha da sürətlə inkişaf etdirilməsinə, müasir infrastrukturların yaradılmasına, əhalinin rifahına və rahatlığına xidmət edir. Bu yaxınlarda Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası müzakirə olunarkən cənab Prezident çox maraqlı faktları da xatırlatdı. Onlardan bəzilərini bir daha diqqətinizə çatdırırıq.

Ölkə Prezidenti bildirdi ki, builki investisiya proqramında Bakı-Yalama və Bakı-Astara dəmir yollarının modernləşdirilməsi və yenidən qurulması, təmiri, çəkilişi nəzərdə tutulub, vəsait də ayrılıb və işlər dərhal başlamalıdır.

Bu il, eyni zamanda, Bakı şəhərətrafı dairəvi dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Bu da şəhərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün çox önəmli layihədir.

Turizm sektorunun inkişafı nəzərə alınaraq, bu il Qəbələ şəhərinə dəmir yolunun çəkilişinə başlanmalıdır. Qəbələ Bakıdan sonra ölkəmizin ikinci turizm mərkəzidir və beynəlxalq turizm mərkəzinə çevrilir. Qəbələdə beynəlxalq aeroport fəaliyyət göstərir. Bu gün bu beynəlxalq aeroport müxtəlif ölkələrə uçuşları təşkil etmək imkanı yaradır.

Bakı-Yalama yolunun tikintisi ilə paralel olaraq, Qusar rayonuna da dəmir yolunun çəkilişi nəzərdə tutulur. Yeni, müasir vaqonlar, lokomotivlər alınacaq və beləliklə, dəmir yolu infrastrukturu tam müasirləşəcək.

Dünya tərəfindən qəbul olunan Azərbaycan gerçəkliyi, Azərbaycan fenomeni budur, bunlardır…

# PREZİDENT İLHAM ƏLİYEV QUSARDA "ŞAHDAĞ" QIŞ-YAY TURİZM KOMPLEKSİNİN NÖVBƏTİ İNKİŞAF PLANLARI İLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov Prezident İlham Əliyevə "Şahdağ" qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verib. Qeyd edilib ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.

Həmçinin dövlətimizin başçısına məlumat verilib ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada "Boulinq", tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq.

İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verilib. Bildirilib ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulub. Bu yeni yoldan kompleks ərazisinə iki giriş nəzərdə tutulub. Kompleksin girişində böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılıb.

Məlumat verilib ki, kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verib.

Sonra Prezident İlham Əliyev "Şahdağ" qış-yay turizm kompleksində xizək sürüb.

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 1-də "Smart Africa" Təşəbbüsünün icraçı direktoru Hamadoun Toureni qəbul edib.***

❖❖❖❖❖

**Fevralın 1-də Azərbaycan Prezidenti İlham Əliyev "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri fevralın 2-də Azərbaycan Dövlət Nəşriyyatı - "Azərnəşr"in əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 2-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarının mükafatlandırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Fevralın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə Kamil Cəlil oğlu Cəlilovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Fevralın 2-də ölkəmizin rəhbəri Mingəçevir Dövlət Dram Teatrının 50 illiyi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 2-də Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib.**

❖❖❖❖❖

***Fevralın 5-də dövlətimizin başçısı növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Fevralın 5-də ölkəmizin rəhbəri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının beşinci qurultayının iştirakçılarını təbrik edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 6-da Xızı rayonunun Giləzi-Xızı (34 km) - Fındığan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

# GƏNCLƏR SİYASƏTİ DİO-da UĞURLA DAVAM ETDİRİLİR

Bir millətin mövcudluğu üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Ölkəmizdə gənclərlə iş sahəsində, onların inkişafına təkan verən, cəmiyyətdə özlərini təsdiq etməsində böyük əhəmiyyəti olan tədbirlər həyata keçirilir. Elə bu faktı nəzərə alaq ki, MDB məkanında və Şərqi Avropa ölkələri arasında gənclər günü ilk dəfə Azərbaycanda qeyd olunub. Hər il 2 fevral Azərbaycanda gənclər günü kimi qeyd olunur. Gənclərə göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq ulu öndər Heydər Əliyev bu barədə müvafiq sərəncam imzalayıb. Aradan ötən müddətdə bu siyasət daha da davam və inkişaf etdirilib.

Dövlət başçımız tərəfindən "Azərbaycan gəncləri 2017-2021-ci illər"də Dövlət Proqramının təsdiq olunması barədə imzalanmış sərəncam gənclərlə bağlı üçüncü Dövlət Proqramıdır. Bu cür proqramların qəbul edilməsində də dövlətimiz liderlik mövqeyini qoruyub saxlayır.

*Ardı 2-ci səhifədə.*

# GƏNCLƏR SİYASƏTİ DİO-da UĞURLA DAVAM ETDİRİLİR

**Əvvəli 1-ci səhifədə.**

Dövlət Proqramının müvafiq bəndinə əsasən, sənədin əhatə etdiyi dövrdə hər il ölkənin bir rayon və ya şəhərinin «Gənclər paytaxtı» elan edilməsi nəzərdə tutulub. Bu münasibətlə onlayn səsvermədə iştirak edən gənclər Naxçıvan şəhərinə daha çox səs veriblər, bununla da qədimliyin və müasirliyin harmoniyasında yenidən qurulan bu möhtəşəm şəhəri 2018-ci ildə "Gənclər paytaxtı" olmağa layiq ən ideal məkan hesab etdiklərini nümayiş etdiriblər.

Hazırda Azərbaycan gəncləri vətənpərvər, yüksək intellektli, milli mənəvi dəyərlərinə, tarixi köklərinə, dövlətə və Vətənə sadiq olmaqla yanaşı, ictimai-siyasi məsələlərlə bağlı əsl vətəndaşlıq mövqeyindən çıxış edərək yüksək fəallıq və təşəbbüskarlıq göstərirlər. Ötən il 160-dan çox ölkədən nümayəndələrin iştirakı ilə Dünya Skaut Təşkilatının 41-ci konfransının Azərbaycanda təşkili gənclərimizin təşkilatlanması, onların beynəlxalq əlaqələrinin inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunun bariz nümunəsidir.

Ümummili liderimiz və onun uğurlu siyasətinin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəmizin gələcəyinin intellektli, sağlam təfəkkürlü, geniş dünyagörüşlü, dərin bilikli, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu çıxış və nitqlərində dəfələrlə vurğulamış, belə gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları üçün tövsiyə və tapşırıqlarını vermişdir.

Dövlət gənclər siyasəti daxili işlər orqanlarında da layiqincə həyata keçirilir. Kadrların hazırlıq səviyyəsinin artırılması, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi, onların bacarığına, peşəkarlığına, dövlətçiliyə sədaqətlərinə görə irəli çəkilmələri DİN rəhbərliyinin fəaliyyətində ən ümdə istiqamətlərdən və daim nəzarətdə saxlanılan məsələlərdəndir. Bunun nəticəsidir ki, son illər minlərlə belə gənc əməkdaş şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında daxili işlər orqanlarında xidmətə qəbul olunub, dövlətə və xalqa sədaqətlə xidmət edir.

**Ardı var.**

*N.Cavadov,*
*Z.Hüseynov*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Berlin şəhərində keçirilən 21-ci Avropa Polis Konqresində iştirak etmək üçün Almaniya Federativ Respublikasında işgüzar səfərdədir.**

Fevralın 6-da öz işinə başlayan, builki mövzusu "Əlaqələndirilmiş təhlükəsizlik fəaliyyətinin effektivliyi" olan toplantını giriş sözü ilə Almaniya Federativ Respublikasının daxili işlər nazirinin yanında parlamentin dövlət katibi Günter Krings açıb. Hər il 50-dən artıq dövlətin 1.600-dən çox nümayəndəsinin iştirakı ilə keçirilən, daxili təhlükəsizlik məsələlərində Avropanın aparıcı konfransı hesab olunan bu mötəbər beynəlxalq forumda dünyanın bir sıra dövlətlərinin, o cümlədən Almaniyanın federal əyalətlərinin daxili işlər nazirləri, Bundestaqın deputatları, Interpolun və Avropolun, Avropa İttifaqının məsul nümayəndələri, polis və sərhəd qurumlarının rəhbərləri, təhlükəsizlik sahəsində fəaliyyət göstərən özəl şirkətlərin təmsilçiləri iştirak edirlər.

İki gün davam edəcək tədbir çərçivəsində ayrı-ayrı panellərdə ümumilikdə təhlükəsizlik sahəsindəki problemlər və onların həlli yolları, xüsusi təyinatlı qüvvələrin rolu və gələcəyi, əməliyyat əməkdaşlığının gücləndirilməsi, kibercinayətkarlığın qarşısının alınması və mühakiməsi, rəqəmsal kriminalistika, kütləvi tədbirlərin, ictimai yerlərin müşahidəsi və mühafizəsi kimi geniş spektrli, aktual məsələlərin müzakirəsi nəzərdə tutulub.

*6 fevral 2018-ci il.*

# UĞURLAR BU İL DƏ QORUNACAQ

**Xəzər RPİ-nin əməkdaşları 2017-ci il ərzində cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması, açılması, ictimai qaydanın və təhlükəsizliyinin təmini funksiyalarını layiqincə yerinə yetirməyə çalışmış, xidməti ərazidə kriminogen durum daim nəzarətdə saxlanılmışdır. İl ərzində görülmüş işlərin yekununa həsr olunmuş müşavirədə bu barədə məlumat verən RPİ-nin rəisi, polis polkovniki Azər Muradov hesabat məruzəsi ilə çıxış etmək üçün sözü əməliyyat işləri üzrə rəis müavini, polis polkovniki Famil Vəliyevə vermişdir.**

Qeyd olunmuşdur ki, ötən dövr ərzində rayon ərazisində 794 cinayət qeydə alınmış, onlardan 759-u açılmış, açılma göstəricisi 86,7 faiz olmuşdur. Cinayətlərin sayı ötən ilin hesabat dövrü ilə müqayisədə 137 fakt yəni 14,7 faiz azalmış, açılma isə 1,3 faiz yaxşılaşmışdır.

Törədilmiş 76 ağır və xüsusilə ağır cinayətin açılması 90,8 faiz, böyük ictimai təhlükə törətməyənlərin isə 95,4 faizi açılmışdır. Qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 79,6 faiz təmin edilmişdir. Bu növ cinayətlərin açılması ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artmışdır.

Qeydə alınmış qəsdən adam öldürmə və ona cəhd, qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma, qəsdən sağlamlığa yüngül zərər vurma, soyğunçuluq, hədə-qorxu ilə tələb etmə, mənimsəmə, qaçaqmalçılıq, saxta pul və ya qiymətli kağızlar hazırlayıb satma, seksual xarakterli zorakılıq hərəkətləri etmə, yol hərəkəri və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol nəqliyyat hadisələrinin açılması 100 faiz təmin edilmişdir.

Oğurluq cinayətlərinin açılması 75,3, o cümlədən mənzil oğurluğunun açılması 71,9 faiz təmin edilmişdir. Ümumilikdə mülkiyyət əleyhinə törədilmiş 405 cinayətdən 373-ü açılmışdır. Adam oğurluğu, zorlama, adamları girov götürmə və banditizm kimi ictimai rezonans doğuran cinayətlər qeydə alınmamışdır. Ötən illərdən bağlı qalmış 23 cinayətin də açılması təmin edilmişdir.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində rayonda quldurluq, oğurluq və digər cinayət törətmiş 97 nəfəri birləşdirən 39 cinayətkar qrup zərərsizləşdirilmişdir. Əməliyyat aparatının əməkdaşları tərəfindən 4 ədəd odlu silah, o cümlədən 1 ədəd "Kalaşnikov" tipli avtomat, 2 tapança, 1 lüləsi və qundağı kəsilmiş ov tufəngi aşkar edilərək götürülmüşdür.

Axtarışda olan 143 təqsirləndirilən şəxsdən 116 nəfəri tutulmuşdur. Onlardan 7-si keçmiş illərdən, 20-si ağır və xüsusilə ağır cinayətlər törətdiyinə görə axtarılanlardır. İtkin düşmüş 27 nəfərdən 19-nun yeri müəyyən edilmişdir.

Narkotiklə bağlı 111 cinayət aşkar olunmuşdur ki, onlardan 31-i satış, 72-si qanunsuz saxlama, 8-i əkinlə bağlıdır. Qanunsuz dövriyyədən ümumilikdə 16 kiloqram narkotik vasitə çıxarılmışdır ki, ondan da 2 kiloqram 564 qramı heroindir.

Tədbirə yekun vuran polis polkovniki Azər Muradov DİN və BPİ-nin rəhbərliyini əmin etmişdir ki, şəxsi heyət üzərilərinə düşən vəzifələri bundan sonra da səylə yerinə yetirəcək, qarnizon üzrə birinciliyini qoruyub saxlamaq üçün var qüvvəsini əsirgəməyəcək.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# «POLİS ANDI» İÇDİLƏR

**Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən, orta rəis heyəti vəzifələrinə xidmətə qəbul olunmuş 68 gənc əməkdaş üçün yanvar ayının 8-dən fevralın 6-dək Polis Akademiyasında "İlkin hazırlıq" kursu təşkil olunub.**



Kursun sonunda gənc əməkdaşların "Andiçmə" mərasimi keçirilib.

Zabitlər adından çıxış edən Tibb İdarəsinin əməkdaşı, tibb xidməti leytenantı Ayşən Zahidova təhsil aldıqları müddətdə onlara yaradılmış yüksək səviyyəli və hərtərəfli şəraitə görə DİN və Akademiya rəhbərliyinə minnətdarlığını bildirib, xidmət sahələrini tənzimləyən ayrı-ayrı fənlər üzrə keçirilən dərslərdə peşəkar müəllimlərdən öyrəndiklərini, eyni zamanda peşə vərdişlərini gələcək fəaliyyətlərində tətbiq edəcəklərini deyib.

Mərasimdə iştirak edən Akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyev DİN rəhbərliyinin tələb və tövsiyələrini diqqətə çatdıraraq kursu uğurla başa vurmaları münasibətilə gənc əməkdaşları təbrik edib, gələcək xidmətlərində nailiyyətlər arzulayıb.

Tədbirin sonunda sertifikatlar təqdim olunub.

*C.Natiq*

# BAŞ MÜHAFİZƏ İDARƏSİNDƏN BİR İLK

**DİN Baş Mühafizə İdarəsinin paytaxtımızda və yerlərdə apardığı xidmət, ən əsası, mühafizənin etibarlı təşkil edilməsi vətəndaşlarımızda da məmnunluq hissi oyadır. Təkcə mühafizə etməklə işini bitmiş hesab etməyən həmkarlarımız cinayətkarlıqla mübarizədə də qətiyyət göstərir, sabitliyin keşiyində ayıq-sayıq dayanırlar. Həyat əhəmiyyətli və strateji obyektlərlə yanaşı, vətəndaşlar tərəfindən mənzillərin də onlara etibar edilməsi, əməkdaşlara inamın göstəricisidir.**



Məhz bu inamı, bu etibarı doğrultmağın yollarını öyrətmək üçün bu dəfə BMİ-nin veteranları Arif Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbdə ilkin hazırlıq kursu keçən gənc mühafizəçilərlə görüşə gəlmişdilər.

Veteranları səmimiyyətlə qəbul edən və baş idarə rəhbərliyinin bu nəcib və gərəkli təşəbbüsünü yüksək qiymətləndirən Məktəbin rəisi, polis polkovniki Mirzeynalabdin Seyidov belə görüşlərin mütəmadi keçiriləcəyinə ümidvar olduğunu dedi.



Tədbirdə çıxış edən BMİ-nin rəis müavini, polis polkovniki Daşqın Mehdiyev polis peşəsinin ilkin sirlərini öyrənən gənc polislər üçün hər cür şəraitin yaradıldığına diqqət çəkərək bildirdi ki, gənclər onlara verilən bu fürsəti dəyərləndirməli və gələcək xidmətlərində təhsil müəssisəsində öyrəndiklərini, bilik və bacarıqlarını inamla nümayiş etdirməlidirlər.

D.Mehdiyev Azərbaycan Polisinin ənənələrini yaşadan bu məktəbə veteranların təşrif buyurmasını da zamanın tələbi olduğunu dedi.

Məktəbin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovniki Fuad Əliyev DİN Baş Mühafizə İdarəsinin bu təşəbbüsünün digər qurumların da davam etdirməsinin arzusunda olduğunu bildirdi. Məktəbdə əsas tələbin yaxşı oxumaq, nizam-intizam və verilən tapşırıqları vaxtında yerinə yetirmək olduğunu deyən F.Əliyev ilkin peşə vərdişlərini layiqincə mənimsəyənlərin gələcəkdə hər hansı bir çətinliklə üzləşməyəcəklərinə inamını ifadə etdi.

BMİ-nin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis mayoru Samir Hüseynov mühafizə polisinin yaranması, keçdiyi tarixi yol barədə məruzə ilə çıxış etdi.

BMİ Veteranlar Şurasının sədri, polis veteranı Faiq Şəfiyev polisin vətəndaş cəmiyyətinin quruculuğunda mühüm rol oynadığını dedi. Diqqətə çatdırdı ki, Azərbaycan Polisi tarixin bütün dönəmlərində vətəninə və dövlətinə sadiqlik nümayiş etdirib, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə ön cərgədə olub. O da vurğulandı ki, BMİ-nin 3 əməkdaşı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Polis veteranları Müəllif Məmmədov, Məmmədrza Talıbov, Məğrub Cahangirov və Adil Əhmədov keçdikləri xidmət yolundan söhbət açdılar. Onlar gənclərə xidmətdə təmkinli olmağı, xidməti sirri qorumağı, vətəndaşlarla ünsiyyətdə xoşrəftar, ən ümdəsi, özünə qarşı tələbkar olmağı, günü-gündən inkişaf edən, turistlərin sayının hər gün artdığı ölkəmizdə sabitliyin, əmin-amanlığın keşiyində daha ayıq-sayıq durmağı, zərərli vərdişlərdən uzaq olmağı, bir sözlə, Azərbaycan Polisinin şərəfli adını uca tutmağı, anda hər zaman sadiqlik nümayiş etdirmələrini diqqətə çatdırdılar.

BMİ-nin Kadrlar şöbəsinin rəis müavini, polis mayoru Mirələsgər Seyidov dəyərli vaxtlarını gənclərlə görüşə həsr etdiklərinə görə veteranlara təşəkkür etdi, bu görüşün uzun müddət gənc polislərin yaddaşında qalacağını dedi.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il fevral ayının 24-də saat 10:00-da Şirvan Şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# ÇƏTİN VƏ ŞƏRƏFLİ XİDMƏTİN BİR ADDIMLIĞINDA

**Bu gün daxili işlər orqanları əməkdaşlarının ilkin hazırlıq keçmələri üçün ixtisaslaşmış DİN-in Arif Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbində gənc əməkdaşların xidmətinin möhkəmlənməsi, eləcə də bütün şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, peşə hazırlığının artırılması məqsədilə davamlı işlər görülür.**

Məktəbin rəisi, polis polkovniki Mirzeynalabdin Seyidov dərs proqramının günün tələblərinə cavab verdiyini, DİN rəhbərliyinin ötən ilin yekunları, xüsusən də şəxsi heyətin etik-davranış qaydaları ilə bağlı kollegiyada səsləndirdiyi tövsiyələrin bu gün dərs proqramlarına salındığını, "Etik-davranış kodeksi" və ya "Polis əməkdaşının davranış qaydaları" mövzusunda keçirilən mühazirələrin davamlı şəkildə dinləyicilərə çatdırılmasının diqqət mərkəzində olduğunu görmək marağımızı nəzərə alaraq, bizi sinif otaqlarından birinə dəvət etdi.



Xüsusi fənlər silsiləsinin müəllimi, polis kapitanı Natiq Babanlı "Ağıllı lövhə"də nümayiş etdirilən "Etik-davranış kodeksi"ndə əksini tapan müddəaların şəxsi heyətin peşə hazırlığının təşkilində, əməkdaşların təlim-tərbiyəsi işinin müasir dövrün tələbləri səviyyəsinə qaldırılmasındakı rolundan danışdı. Polis əməkdaşlarında yeni düşüncə tərzinin, dünyagörüşün formalaşdırılması, əxlaqımıza, adət-ənənələrimizə uyğun etik-davranış qaydalarının onlara daha dərindən aşılanması, polisin cəmiyyətdəki nüfuzunun artırılması tədbirlərinin əhəmiyyətini vurğuladı.

Rəisin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovniki Fuad Əliyev qeyd etdi ki, gündəlik fəaliyyətində cəmiyyətin ayrı-ayrı sosial qrupları ilə bilavasitə təmasda olan polis əməkdaşlarının intellektual səviyyəsi, geniş dünya görüşünə malik olması, qanunun aliliyi prinsipinə riayət etməsi, rəftarında, müraciətində etik davranış normalarının tələblərini gözləməsi vacibdir. Bütün bu keyfiyyətlərin hər bir əməkdaşda aşılanması üçün fərdi yanaşma prinsipi əsas götürülsə də, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin mövcudluğu, əməkdaşlar arasında Vətənə, dövlətçiliyə, xidməti borca sədaqət hissləri uğurlu nəticələr üçün başlıca şərtdir.

M.Seyidov onu da diqqətimizə çatdırdı ki, xidmətin xüsusiyyəti ondan ibarətdir ki, polis əməkdaşları mənəvi dəyərlərimizi mühafizə edir, bir qədər də dəqiqləşdirsək, həm də milli mənəviyyatımızın qoruyucularıyıq. Polis əməkdaşları tərəfindən törədilən neqativ fakt insan hüquqlarının tapdanmasına yönəldilmiş hər bir əməl, kobudluq, təkəbbürlük, qeyri-etik davranış ictimaiyyət arasında geniş rezonans doğuraraq vətəndaşlarda polisə olan inamın zəifləməsinə səbəb olur, polisin imicinə ləkə gətirir.

Daxili işlər orqanları əməkdaşlarının qanunvericiliyi öyrənib ona əməl etmələri, mövcud əmr, normativ sənədlərin tələblərinə riayət olunması bütövlükdə polisin işinin səmərəliliyinin yüksəldilməsinə, əhali arasında onun nüfuzunun artırılmasına xidmət etməklə yanaşı, cinayətkarlığa qarşı mübarizəni, ictimai asayişin qorunmasının ümumxalq işinə çevrilməsinə şərait yaratmış olur.

Bu gün insan və vətəndaş hüquqlarının qoruyucusu və təminatçısı rolunda çıxış edən tərəf hüquq-mühafizə orqanları, o cümlədən polisdir. İnsanlar bizdən cinayətkarlığa qarşı barışmazlıq, əməldə düzlük, səriştəlilik və peşəkarlıq, insanpərvərlik, humanistlik gözləyir. Bu keyfiyyətlərin polisdə xidmətə yeni başlayan, bu sahədə ilk addımlarını atan əməkdaşlara yetərincə aşılanması sabahın dinc həyatının, təhlükəsizliyinin və asayişinin də qarantı deməkdir. Çətin, amma çox şərəfli işdir.

*Hafiz Təmirov,*
*polis mayoru*

**Binəqədi Rayon Polis İdarəsinin şəxsi heyəti tərəfindən 2017-ci il ərzində cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində görülən işlərə dair əməliyyat müşavirəsini giriş sözü ilə açan rəis, polis polkovniki Namiq İsmayılov qeyd etdi ki, RPİ-nin əməkdaşları qanunvericiliyini, ölkə Prezidentinin fərman və sərəncamlarını, DİN-in və şəhər BPİ rəhbərliyinin əmr və göstərişlərini rəhbər tutaraq cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmin edilməsi üçün bütün qüvvələrini səfərbər ediblər. Yenicə qədəm qoyduğumuz 2018-ci ilin daha məsuliyyətli il olduğunu diqqətə çatdıran N.İsmayılov hesabat üçün sözü polis polkovnik-leytenantı Qafar Haqverdiyevə verdi.**




Həmçinin o da bildirilib ki, cinayət törətmiş 138 nəfərdən ibarət 56 cinayətkar qrup ifşa olunub.

Hesabat dövründə RPİ üzrə 327 şəxs axtarışda olub, keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində onlardan 248 nəfərin tutulması təmin edilib. Keçmiş illərdən axtarışda olan 18 nəfər yaxalanıb. Ağır və xüsusilə ağır cinayətlərə görə 115 təqsirləndirilən şəxsdən 79-u tutulub, 55 itkin düşəndən 43-nün yeri müəyyən edilib. İkisi avtomat, 4-ü tapança, 1-i yivli tüfəng olmaqla, ümumilikdə əməliyyat yolu ilə 7 ədəd odlu silah götürülüb. Keçmiş illərdən bağlı qalmış 18 cinayətin açılması təmin edilib.

# MÜZAKİRƏ, TƏHLİL VƏ NƏTİCƏ

Qeyd olundu ki, ötən il ərzində rayon ərazisində 1521 cinayət qeydə alınıb, onlardan 1025-nin açılması təmin edilməklə cinayətlərin açılması 80.7 faiz təşkil edib. Qeyri-aşkar şəraitdə baş verən 1039 cinayətdən 619-u açılıb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin açılması 1,8 faiz yaxşılaşıb. Törədilən 240 ağır və xüsusilə ağır cinayətin açılması 7,1 faiz yaxşılaşaraq 88.3 təşkil edib. Qəsdən sağlamlığa yüngül zərər vurma 42, soyğunçuluq 4, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə cinayətlər 34, narkotik vasitələrlə bağlı cinayətlər 46, o cümlədən satışı 11 fakt azalıb. Mülkiyyət əleyhinə törədilən cinayətlərin açılması 72,8 faizdir. Qəsdən adam öldürmə, adam öldürməyə cəhd, zorlama, dövlət və ya bələdiyyə əmlakını talama, quldurluq, hədə-qorxu ilə tələb etmə, avtonəqliyyatın qaçırılması, cinayət yolu ilə əldə edilmiş əmlakı alma-satma, ölümlə nəticələnən yol-nəqliyyat hadisələri, korrupsiya ilə bağlı, insan alveri cinayətlərinin açılması 100 faiz təmin edilib.

Narkotiklərlə mübarizə bölməsinin və ərazi PB-nin əməkdaşları tərəfindən hesabat dövrü ərzində narkotik maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 57 fakt aşkar edilib, onlardan 22-si satışla bağlı olub. Qanunsuz dövriyyədən 29 kiloqram müxtəlif növ narkotik vasitə çıxarılıb ki, bu da ötən illə müqayisədə 3 kiloqram çoxdur.

Müzakirələrdə ayrı-ayrı xidmət rəisləri çıxış etdilər, buraxılmış nöqsanlardan, qarşıda duran vəzifələrdən danışdılar.

Əməliyyat müşavirəsinə yekun vuran polis polkovniki Namiq İsmayılov bildirdi ki, şəxsi heyət ictimai təhlükəsizliyin nümunəvi təşkil edilməsində, cinayətkarlığa qarşı mübarizədə bundan sonra da əzmkarlıq göstərəcək, ötən dövr ərzində yol verilmiş nöqsanların qısa müddətdə aradan qaldırılmasını təmin edəcək.

*Ç.Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# İXTİSASARTIRMA KURSUNDA...

**2018-ci ilin fevralın 6-dan 11-dək şəhər, rayon, xətt polis orqanları rəislərinin şəxsi heyətlə iş üzrə köməkçiləri ilə DİN-in "Xəzri" İSM-də ixtisasartırma kursu təşkil olunmuşdur.**

Ayın 6-da DİN-in müvafiq tədris planına uyğun olaraq, "Şəxsi heyətlə işin "Daxili işlər orqanlarında fəaliyyətin mənəvi-psixoloji təminatı üzrə" Təlimata uyğun təşkili qaydaları", "Şəxsi heyətlə işin planlaşdırılmasına qoyulan tələblər" mövzuları üzrə keçirilən növbəti məşğələdə iştirak edən Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki Rahib Qarayev şəxsi heyətlə iş sahəsində aparılan işin, o cümlədən, əməkdaşların mənəvi-psixoloji hazırlığı tədbirlərinin vəziyyətini ətraflı təhlil edərək, bu istiqamətdə fəaliyyətin təşkili, əməkdaşların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, onlara peşə etikası normalarının dərindən aşılanması ilə bağlı fikirlərini çatdırmışdır.





Sonra o, ölkə rəhbərimizin daxili işlər orqanları qarşısında qoyulan tələblər, onların yerinə yetirilməsi ilə bağlı şəxsi heyətlə iş üzrə rəis köməkçilərinin üzərinə düşən vəzifələr barədə məlumat vermişdir.

*Ü.Muradov*

# BİR İL – AY...

**Bu gün paytaxtımıza təşrif buyuran qonaqların, o cümlədən turistlərin üz tutduğu məkanların böyük qismi Səbail rayonunda yerləşir. Elə təkcə Fəvvarələr meydanında hər addımbaşı turstlə rastlaşmağınız da bunun bariz nümunəsidir.**

Səbail rayonunun adını çəkməyimiz əbəs deyil. Çünki bu dəfəki söhbətimizin mövzusu məhz bu mərkəzi rayonda polisin xidməti ilə bağlıdır. RPİ-nin rəisi, polis polkovniki Şəmşir Kazımovla söhbətə isə bir az əvvəldən başlayırıq.

İdarə rəisi 2017-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində görülmüş işlər, həyata keçirilən tədbirlər, habelə xidməti fəaliyyətin təkmilləşdirilməsi və onun nəticələrinə dair əldə olunmuş göstəriciləri diqqətimizə çatdırır. Deyir ki, ötən il qeydə alınmış 824 cinayətin 718-nin açılması təmin edilib. Həyata keçirilən qabaqlayıcı tədbirlərə baxmayaraq, 2016-cı illə müqayisədə baş verən cinayətlər 20,6 faiz artsa da (mülkiyyət əleyhinə olan cinayətlərin hesabına), cinayətlərin açılması 72,4 faizdən 86,5 faizədək yüksəlib. Ağır və xüsusi ilə ağır cinayətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 180-dan 189-dək artıb, onların 153-nün açılması təmin edilib. Qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin açılmasında da irəliləyiş var. Mülkiyyət əleyhinə törədilən cinayətlər 135 fakt artsa da (dələduzluq və oğurluq cinayətləri hesabına), onların 488-nin açılması təmin edilib və əvvəlki illə müqayisədə bu növ cinayətlərin açılması 22 faiz yaxşılaşıb.

Bildirilir ki, axtarışda olan 154 nəfər təqsirləndirilən şəxsdən 98-i, qəsdən bədənə ağır xəsarət yetirməyə görə 4 nəfərdən 2-si, qəsdən bədənə az ağır xəsarət yetirməyə görə 6 nəfərdən 5-i, soyğunçuluğa görə 5 nəfərdən 4-ü, dələduzluğa görə 72 nəfərdən 50-i tutulub.

İdarə əməkdaşları tərəfindən 10-u satış olmaqla 29 narkocinayətin üstü açılıb, qanunsuz dövriyyədən 15 kiloqramdan çox narkotik vasitə çıxarılıb.

İstintaqı tamamlanmış mülkiyyət əleyhinə olan cinayət işləri üzrə vurulmuş 2.400.954 manat ziyanın 88,2 faizinin ödətdirilməsi təmin edilib.

Yeri gəlmişkən, uğurlu tədbirlər yeni ildə də davam etdirilir. İlin ilk günlərində törədilmiş bəzi cinayət faktlarının üstü isti izlərlə açılıb. Belə ki, yanvarın 2-də saat 21:40 radələrində naməlum şəxs Səbail rayonu ərazisindəki mehmanxanalardan birinə bomba qoyulması barədə məlumat verib. Digər hüquq-mühafizə orqanları ilə birlikdə təxirəsalınmaz tədbirlər həyata keçirilib, məlumat təsdiqini tapmayıb. Bakı Şəhər Baş Polis İdarəsi və Səbail Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə bomba qoyulması barədə yalan məlumat verməkdə şübhəli bilinən Bakı şəhər sakini, 24 yaşlı Elmar Qasımov müəyyən edilərək saxlanılıb.

Quldurluq etməkdə şübhəli bilinən və aparılan araşdırmalardan sonra cinayəti sübut olunan Şəhriyar Həsənov da yanvarın 18-də yaxalanaraq istintaqa təhvil verilib.

*T.Hafiz*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA VAKANT OLAN ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında (Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla) polis sahə rəisi, əməliyyat müvəkkili və yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanlarından və müsahibədən ibarətdir. Test imtahanları – Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar üzrə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, müsahibə – test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçılarla Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (pedaqoq) ixtisası üzrə təhsil almış, yaşı 28-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Hacıqabul (1), Xaçmaz (1), Xızı (1), Qubadlı (1), Qusar (1), Saatlı (1), Sabirabad (1), Yardımlı (1) və Şirvan (1) şəhər, rayon polis şöbələrində vakant yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsi üçün müsabiqədə yalnız göstərilmiş rayonlarda yaşayış yeri üzrə qeydiyyatda olan və azı 3 il pedaqoji staja malik şəxslər iştirak edə bilərlər.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda (Naxçıvan Muxtar Respublikası istisna olmaqla), qeydiyyatda olan yalnız subay namizədlər respublikanın rayonlarında yaşayış şəraitləri nəzərə alınmaqla müsabiqəyə buraxılacaqlar.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyənlər **http://www.mia.gov.az/index.php?/az/content/29799/ ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

Elektron ərizənin Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsində qeydiyyata götürülməsi barədə elektron poçt vasitəsi ilə müvafiq məlumat aldıqdan sonra namizədlər yaşadıqları ərazi polis orqan- larına aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi;
- ali təhsil haqqında diplom;
- hərbi bilet (kişilər üçün);
- əmək kitabçası (olanlar üçün);

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər **Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında** yerləşdirilmişdir.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2018-ci il yanvar ayının 22-dən fevral ayının 21-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 17-dək şəhər, rayon polis orqanlarında qəbul olunur.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

(012) 590-92-37; (012)-590-92-54. (012) 590-93-27;

(012) 590-93-45; 012) 590-93-64; (012) 590-95-23.

***DİN-in Baş Kadrlar İdarəsi***

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

**(Hüquqşünaslar üçün)**

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Dövlət və hüquq nəzəriyyəsi.
-Cinayət hüququ.
-Cinayət prosesi.
-İnzibati hüquq.
-Kriminalistikanın əsasları.
-Kriminologiyanın əsasları.
-Mülki hüquq.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
-«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

**(Pedaqoji təhsillilər üçün)**

Daxili işlər orqanlarında yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili xidmətinə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Pedaqogikanın nəzəriyyəsi.
-Yaş psixologiyası.
-Sosial psixologiya.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
-«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN

## *MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ*

«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşagıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Kişilər üçün**

**Qaçış: 100** (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

**Turnikdə dartınma** – 6 dəfə;

**Qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi** – 18 dəfə;

**Arxası üstə uzanmış vəziyyətdə gövdənin döşəmədən qaldırılıb-endirilməsi**–18 dəfə.

**Qadınlar üçün**

**Qaçış: 100 (yüz) metrə** – 19 saniyə, **1000** (min) metrə – 5 dəqiqə 10 saniyə;

**Gimnastik hərəkətlər.**

# BU POLİS ÖMRÜDÜR:
## ACISI İLƏ, ŞİRİNİ İLƏ

**"Sonunu düşünən qəhrəman olmaz" deyimini, əslində, dünən olduğu kimi, bu gün də başqasının həyatını qorumaq üçün özünü təhlükəyə atan, öz ömrü ilə ömürlərin xilaskarına çevrilən Azərbaycan Polisinə şamil etmək olar.**

O, heç vaxt seçim etməyib, təhlükə yaxında və ya uzaqda olsa belə gözünü qırpmadan ona doğru gedib. Bir namərdin gülləsinin də, bıçağının da hədəfi olub, amma sınmayıb, əyilməyib.




Hər anı belə sınaqlarla dolu olan polis həyatı kimlərəsə uzaqdan rəngbərəng, allı-güllü görünə bilər. Hətta bəziləri var ki, "Polisə nə var e, belinin üstündə tapança, ürəyi istədiyini edir",-deyib, bu yaradılan əmin-amanlığı, sabitliyi görməzlikdən gəlir. Görülən işə qiymət vermək isə hər kişinin yox, ər kişilərin işidir…

Elə bu günlərdə, daha dəqiq desək, fevralın 2-də saat 10:30 radələrində Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsindəki 47 nömrəli binanın 14-cü mərtəbəsində baş verən yanğın zamanı 20 nəfər bina sakini ərazidə xidmət aparan Əlahiddə Çevik Polis Alayının 1-ci Patrul bölüyünün əməkdaşları-taqım komandiri polis leytenantı Ağasəf Zərgərli, polis serjantları Fuad Əliyev, Şəhriyar Seyidov, Asəf Behbudov və Samir Əliyev tərəfindən təxliyə edilmişdir. Həm də bu elə ilin əvvəlindən bəri şahidi olduğumuz nə ilk, nə də son faktdır…

# AZYAŞLILAR XİLAS EDİLDİ

**Fevralın 3-də səhər saatlarında Nəsimi rayonu, Şamil Əzizbəyov 156 ünvanında yerləşən üçmərtəbəli binanın girişindəki mağazada yanğın olub. Dərhal hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin aidiyyatı qurumlarının və Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları cəlb olunub.**

Sakinlərin təxliyyə edilməsi üçün təxirəsalınmaz tədbirlər görülüb.

Binanın üçüncü mərtəbəsindəki evlərin birində köməksiz vəziyyətdə qalmış və tüstüdən zəhərlənmiş 14 yaşlı Kərəm, 12 yaşlı Elcan və 9 yaşlı Selcan Səfərlilər polis əməkdaşları tərəfindən xilas edilib, onlara ilkin tibbi yardım göstərilb. Qohum olan azyaşlıların vəziyyətləri qənaətbəxşdir.

Yanğınsöndürənlər tərəfindən alovun qarşısı alınıb.

Hadisə nəticəsində azyaşlıları alovun cəngindən xilas edən Post- Patrul Xidmətinin əməkdaşları - polis serjantları Qoşqar İsmayılov və Kamran Əhmədli tüstüdən zəhərləniblər. Onlar xəstəxanaya yerləşdiriliblər.

*H.Təmirov*
*N.Cavadov*

# ELAN
## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!



Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***

**Mənzillərin sahələri:**

1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

# «XƏZRİ»
## SİZİ GÖZLƏYİR!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində bir günlük xərcin**
**16.09.2017-ci il tarixindən 31.05.2018-ci il tarixədək mövsüm üzrə qiymətləri (manatla)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 20 manat (iki nəfərlik nömrəni tək tutduqda 30 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 60 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 55 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 80 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 105 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (hovuz, hamam, sauna), trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Qara Qarayev" və "Koroğlu" metrostansiyalarından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**16 sentyabr 2017-ci il - 31 may 2018-ci il**
*(2 nəfərlik standart otağın qiyməti: iki nəfər qaldıqda 160 manat, bir nəfər tək qaldıqda 120 manat, gündə 3 dəfə yeməklə)*

| | 2 nəfərlik nömrədə 2 istirahətçi 1 gün qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə 1 istirahətçi tək 1 gün qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75 % güzəştlə) | 20,00 | 30,00 |
| Onun ailə üzvü (50 % güzəştlə) | 40,00 | 60,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50 % güzəştlə) | 25,00 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 80 | 120 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50 | |

Yaponiya polisi cinayətlərin açılması və qarşısının alınması üçün süni intellekt sistemlərindən istifadə edəcək. Eksperiment ölkənin Kanaqava prefekturasında keçiriləcək.

Aprel ayından etibarən, region polisinə müxtəlif tipli və bir-biri ilə əlaqəsi olmayan, o cümlədən sosial şəbəkələrdən əldə olunmuş məlumatların təhlilini həyata keçirəcək özü-özünü öyrədən kompyuter sisteminin tətbiqi üçün maliyyə ayrılacaq. Güman edilir ki, bu, qanunu pozan şəxslərin müəyyənləşdirilməsinə, onların növbəti addımlarını, o cümlədən yeni cinayətlərin törədiləcəyi vaxtın və yerin proqnozlaşdırılmasına yardım edəcək.




Sistem riyazi statistikanın ən müasir metodlarının tətbiqini nəzərdə tutur.

*****

***Gürcüstanın Daxili İşlər Nazirliyi "qanuni oğrular"la bağlı yeni qanun layihəsi hazırlayıb. Sənədə əsasən, belələrinə və onların tərəfdaşlarına qarşı cəzalar sərtləşdirilir. Qanun layihəsinin hazırlanması üçün daxili işlər naziri İtaliyaya səfər edərək, bu ölkənin təcrübəsini öyrənib. Məlumata əsasən, Gürcüstan hökuməti və güc strukturları ölkədəki cinayətkar qruplara, kriminal avtoritetlərə qarşı daha sərt və amansız olacaq.***

***"Bu istiqamətdə qanunvericiliyə əhəmiyyətli dəyişikliklərin edilməsi planlaşdırılır. Hazırlanmış qanun layihəsi cəza mexanizminin tətbiq olunduğu cinayət əməllərinin dairəsini genişləndirir", - məlumatda qeyd olunur.***

*****

Böyük Britaniyanın Sərhəd Xidmətinin əməkdaşları Farnboro hava limanında şəxsi təyyarənin göyərtəsində 500 kiloqramadək kokain aşkar ediblər. Dəyəri 70,6 milyon ABŞ dolları olan narkotik Kolumbiyanın paytaxtı Boqotadan gətirilib.

*****

***2017-ci ildə Gürcüstanda 37944 cinayət törədilib. Daxili İşlər Nazirliyinin verdiyi xəbərə görə, bu göstərici 2016-cı ilin eyni göstəricisindən 5,4 faiz çoxdur.***

***Ötən il baş vermiş cinayətlərin 53,2 faizinin üstü açılıb. Qeydə alınmış cinayətlərin 64,5 faizi sağlamlığa, əmlaka zərərvurma və narkotiklərlə bağlı olub.***

*****

İstanbulun Atatürk hava limanında külli miqdarda porsuq xəzini Türkiyəyə qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd edən ər-arvad saxlanılıb.

Gömrük xidməti əməkdaşları Ukraynanın Odessa şəhərindən gələn əcnəbilərin hərəkətlərindən şübhələnərək onları izləməyə başlayıb və aeroportun Xarici Xətlər Terminalında saxlayıblar. Yüklərinə baxış keçirilərkən vakkum paketlərə qablaşdırılmış halda 200 ədəd porsuq xəzi aşkar edilib.

*****

***Dubay küçələrində müxtəlif dövlət qurumları üçün məlumat toplamaq məqsədilə minlərlə kameralar quraşdırılacaq. "Oyoon" adlı yeni layihə hökumətin Dubayı 2021-ci ilə qədər "ağıllı şəhər" etmək proqramının bir hissəsidir.***

***Kameralar cinayətləri, qeyri qanuni hərəkətləri, yol hərəkəti qaydalarının pozuntusunu izləyəcək. Quraşdırılmış kameralar süni intellekt vasitəsilə insanın iştirakı olmadan ekrandakı canlı mənzərəni analiz edə biləcək. Həmçinin insanların üzünü tanıyacaq, əşyaları və minik vasitələrini müəyyən edəcək. "Ağıllı" kameralar yol hərəkəti qaydalarını pozan şəxsləri müəyyən edəndən sonra, polis maşını saxlamadan cərimə yazmaq imkanı qazanacaq.***

*C.Natiq*

# Yanvarın 31- dən 6-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 706 cinayət qeydə alınmış, onların 161-i «isti izlər»lə açılmışdır.
- Axtarışda olduğuna görə 124 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 24 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüş, 28 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 77 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 229 nəfər saxlanılmışdır.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN 1 nömrəli Poliklinikasının rəisi Səadət Həsənova və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Baş Təşkilat-İnspeksiya İdarəsinin əməkdaşı Nanə Poladovaya atası
**MEHDİQULU kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Adil Həsənov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qobustan RPŞ-nin rəisi Etibar Babayev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zəngilan RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.238
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00